## Azərbaycan Respublikasının Belçika Krallığındakı Səfirliyi

| | |
|---|---|
| **Haradan:** | **SBRS** |
| **İcra üçün:** | **MİHİ, MRTİ, MMXİ** |
| **Məlumat üçün:** | **MNKT, Aİ üzv ölkələrindəki Səfirliklərə, NDNC, NAVŞ, SVŞN** |
| **Sənədin № SBRS/107/17** | **Tarix: 16 / 02 /2017** |
| **Sənədin göndərilməsi:** | **Elektron poçt** |
| **Səhifələrin sayı: 5** | **Əlavə olunur: 5+29** |
| **Məhdudluğun qrifi:** | **Xidməti istifadə üçün** |
| **Təciliiliyi** | **Çox Təcili** |
| **Vacibliyi:** | **Çox Vacib** |
| **Məsələyə dair:** | **Cari ilin 14 fevral tarixində Avropa Parlamentinin Strasburq sessiyası müddətində Frank Engel tərəfindən keçirilmiş mətbuat konfransına dair** |

Azərbaycan Respublikasının
xarici işlər naziri
cənab Elmar Məmmədyarova

Hörmətli cənab Nazir,

Səfirliyin SBRS/097/17, SBRS/101/17, SBRS/102/17 saylı, 14/02/2017 tarixli məktublarına əlavə olaraq bildirmək istərdik ki, cari ilin 14 fevral tarixində Avropa Parlamentinin (AP) Strasburq sessiyası müddətində Avropa Xalqları Partiyası (AXP) siyasi qrupunun Lüksemburqdan olan üzvü, qatı-ermənipərəst və anti-Azərbaycan mövqeli şəxs kimi tanınan Frank Engel tərəfindən "Dağlıq Qarabağ münaqişəsinin insan hüquqlarına təsiri" mövzusunda "mətbuat konfransı" keçirilmişdir. Tədbirdə əsas çıxışçı qismində işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma rejimin "Ombudsmanı" kimi təqdim edilən Ruben Melikyan dəvət edilmişdir.

Tədbirin əsas mahiyyəti 2016-cı ilin aprel ayında Dağlıq Qarabağda baş vermiş döyüşlərin insan hüquqlarına təsiri mövzusu üzrə çıxışlar etmək və bu xüsusda, işğalçı tərəfin hazırladığı hesabatı *(əlavə olunur)* təqdim etməkdən ibarət olmuşdur.

İlk olaraq çıxış edən F.Engel R.Melikyanın Strasburqda olduğu müddətdə AP-də bir sıra görüşlər keçirtdiyini və aprel döyüşləri zamanı Azərbaycan tərəfindən insan hüquqlarının kütləvi pozulması hallarının baş verməsi ilə bağlı əldə etdiyi məlumatları bölüşdüyünü iştirakçıların diqqətinə çatdırmışdır. Daha sonra deputat çıxış üçün sözü erməni nümayəndəsinə vermişdir. R.Melikyanın çıxışı ilə bağlı əsas məqamlar aşağıdakılardır:

- "Arsax vətəndaşlarının səslərinin Avropalı tərəfdaşlar tərəfindən eşidilməsi bizim üçün çox vacibdir. Mənim təqdimatım heç bir siyasi məqsəd daşımır və məsələyə sırf insan hüquqları perspektivindən yanaşır."
- "Arsaxın dövlət kimi tanınmaması, orada yaşayan insanların hüquqlarının da tanınmaması anlamına gəlməməlidir. Hazırki hesabatda aprel müharibəsi zamanı Azərbaycan tərəfinin sistematik şəkildə insan hüquqlarını pozmasına dair faktlar yer almışdır. Azərbaycan qüvvələrinin nəzarət etdiyi ərazilərdəki vətəndaşların 90%-i ya işgəncələrə məruz qalmış, ya öldürülmüş, ya da ki fiziki qüsurlu buraxılmışdır. Bunu Azərbaycan aqresiyasının bütün istiqamətləri boyunca məsələn, Talış kəndi ilə bağlı görmək olar. Bu hesabatda bütün şahidlərin ifadələri, şəkillər və faktlar öz əksini tapmışdır."
- "Keçirdiyim görüşlər zamanı A.Lapşinin Azərbaycana ekstradisiyası barədə də fikir mübadiləsi aparmışıq. Zənnimcə, bu gələcəkdə xarici vətəndaşları Arsaxa gəlməkdən çəkindirəcək. Biz bununla razılaşa bilmərik."
- "Arsax vətəndaşları Avropa İttifaqı ilə daha yaxından tərəfdaşlıq qurmağa, Avropa dəyərlərini ehtiva edən insan hüquqlarını özlərinə nümunə götürməyə hazırdılar. Düşünürəm ki, bu insanlara belə bir şans verilməlidir."

Daha sonra çıxış edən F.Engel Cənubi Qafqazda tanınmamış digər ərazilər ilə Avropa İttifaqının praktiki fəaliyyətinin olduğu halda, belə bir vəziyyətin "Dağlıq Qarabağ"la olmamasını məntiqsiz adlandırmışdır. Sonra o, "Azərbaycanın korrupsiya yolu ilə öz xeyrinə qətnamə qəbul etdirməsi və bunun əvəzində italyan bir deputatın müəyyən həcmdə vəsait alması" barədə əsassız iddialar səsləndirmişdir. F.Engel nə Ermənistanın, nə də "Arsaxın" belə metoddan istifadə etməyəcəyini bəyan etmişdir.

Bundan sonra F.Engel tədbirə cüzi sayda qatılan *(5-6 nəfər, zalın demək olar ki, boş olması ilə bağlı müvafiq şəkil əlavə olunur)* şəxslər üçün sual-cavab sessiyasını elan etmişdir. Çıxış edənlərə cəmi iki sual verilmişdir ki, bunun da hər ikisi panorama.am erməni mediasını təmsil edən jurnalist tərəfindən səsləndirilmişdir. İlk olaraq o, A.Lapşinin Azərbaycana gətirilməsi anının

silahlılarla müşayiət olunmasına F.Engelin münasibətini və daha sonra, Avropa İttifaqının "Dağlıq Qarabağ"la birbaşa əlaqələr yaratması imkanını sorğulayaraq Aİ-nin burada konkret hansı layihələr həyata keçirə biləcəyi ilə maraqlanmışdır. Cavabında F.Engel emosional çıxış edərək söylədiyi fikirləri daha əvvəllər də bəyan etdiyini, Lapşinlə bağlı təsvirlərə baxarkən bu şəxsin adi bloqer olduğuna inanmağın çətin olduğunu bildirmişdir. Habelə, Ramil Səfərovun Azərbaycana gətirilərək milli qəhramana çevrilməsi məsələsinə də toxunaraq bunun qəbuledilməz olduğunu və Azərbaycan kimi ölkənin sivil dünyada yerinin olmadığını vurğulamışdır. İkinci suala gəlincə isə, o, ermənipərəst həmkarları ilə Avropa Komissiyasına yazılı sual proseduruna uyğun olaraq müraciət etdiyini, lakin hələlik konkret bir cavab almadığını bildirmişdir.

Habelə, qeyd edək ki, hər iki çıxışçı aprel döyüşləri kimi insidentlərin baş verdiyi zaman insan hüquqlarının pozulmasının qarşısının alınması məqsədilə ərazidə beynəlxalq müşahidəçilərin mövcudluğunun vacibliyini ifadə etmişdir. F.Engelin fikrincə, münaqişənin həlli ilə bağlı yeganə formatın ATƏT-in Minsk qrupunun olmasına baxmayaraq, Avropa İttifaqı və onun institutları da məsələyə dair rolunu artırmalıdır. Deputat hesab edir ki, Avropa İttifaqı Azərbaycana qarşı iki seçim irəli sürməlidir: ya Azərbaycan atəşkəs monitorinqi mexanizmini qəbul etməli, ya da Şərq Tərəfdaşlığından çıxarılmalıdır. F. Engel hesab edir ki, Avropa enerjiyə olan tələbatını başqa istiqamətlərdən də əldə edə bilər.

Bundan əvvəlki məktublarımızda bildirdiyimiz kimi, bu tədbirlə bağlı məsələlərə dair Səfirlik tərəfindən bir çox AP deputatları ilə əlaqələr saxlanılmış, onların yüksək səviyyəli rəsmilərinə məktublar (əlavə olunur) göndərilmişdir. Nəticədə, bu tədbirə dair Avropa Xalqları Partiyasının (AXP) rəsmi veb-səhifəsində yerləşdirilmiş məlumat Səfirliyin səyləri nəticəsində səhifədən çıxarılmış və beləliklə, bunun AXP-nin tədbiri kimi təqdim edilməsinin qarşısı alınaraq, məhz şəxsi əsasda təşkil edilən "mətbuat konfransı" olmasına dair fakt aşkara çıxarılmışdır. Bundan əlavə, dost deputatlar ilə təmaslarımız zamanı gələcəkdə bu səpkidə tədbirlərin baş verməsinin yolverilməzliyi qətiyyətlə diqqətə çatdırılmışdır. Bu xüsusda, Azərbaycana dost münasibəti olan AP üzvləri aşağıdakı istiqamətlərdə fəaliyyət aparacaqlarını bildirdilər:

- AP-nin Təhlükəsizlik və Müdafiə alt-Komitəsinin sədri, AP-nin Xarici Əlaqələr Komitəsinin (AFET) üzvü Anna Fotiqa Avropa Mühafizəkarlar və İslahatçılar (ECR) siyasi qrupunun büro iclasında (AP-də üzvlərin sayına görə 3-cü yeri tutur) bu məsələni gündəmə gətirəcək.
- Azərbaycan üzrə hesabatın məruzəçisi Noriko Nikolay (Avropa Liberalları və Demokratlar siyasi qrupu- ALDE, Rumıniya) AP Prezidenti Antonio Tayaniyə məktub ünvanlayacaq.
- AFET üzvü, Sloveniyadan olan deputat İvo Vayql Azərbaycanda məcburi köçkünlərlə bağlı AP-də tədbir təşkil edəcək.

- AFET üzvü, Rumıniyadan olan deputat Ramona Manesko üzv olduğu - Avropa Xalqları Partiyasının (EPP) rəhbərliyi qarşısında bu məsələni qaldıracaq. Onu da qeyd edək ki, məhz R. Maneskonun səyləri nəticəsində tədbirə dair məlumat EPP-nin veb səhifəsindən çıxarılmışdır (SBRS/102/17,14/02/17).
- AFET üzvü, Bolqarıstan olan deputat İlhan Küçük tərəfindən AP Prezidenti A.Tayaniyə şikayət məktubu göndəriləcək (Səfirlik tərəfindən məktubun mətn layihəsi İ.Küçüyün ofisinə təqdim edilmişdir).

Xatırlatmaq istərdik ki, cənab Prezidentin 6 fevral tarixində Brüsselə işgüzar səfəri ilə eyni tarixdə AP-də insan hüquqlarının vəziyyətinə həsr edilmiş təxribat xarakterli tədbir AP-dəki qatı-ermənipərəst və anti-Azərbaycan mövqeyindən çıxış edən Y.Ştetina tərəfindən təşkil edilmişdir. Təsadüf deyil ki, həmin tədbirdən çox keçməmiş ölkəmizin əleyhinə olan digər deputat, F.Engelin AP-nin "insan hüquqlarının carçısı" imicindən yararlanaraq qondarma rejimin "ombudsmanı" ilə birgə mətbuat konfransının təşkili Azərbaycanı ləkələmək məqsədinin göstəricisidir. Görünən odur ki, bu şəxslər AP-nin insan hüquqları sahəsindəki "həssaslığını" nəzərə alaraq, fəaliyyətlərini məhz bu istiqamətdə aparırlar. Azərbaycanın insan hüquqları ilə bağlı təqdim olunan vəziyyətini bilavasitə münaqişə kontekstinə də inkorporasiya etmək meylləri müşahidə olunur. Bununla da, AP-dəki anti-Azərbaycan qüvvələri "Dağlıq Qarabağ Respublikasın"dakı demokratik dəyərlərin "qeyri-demokratik Azərbaycana" qurban veriləcəyi imicinin yaradılmasına çalışırlar.

Hesab edirik ki, beynəlxalq səviyyədə ərazi bütövlüyü prinsipinin üstün olması və Aİ-nin yüksək səviyyəli rəsmiləri tərəfindən dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyən, münaqişənin beynəlxalq hüquq və prinsiplər çərçivəsində həllini ehtiva edən bəyanatların (*Donald Tusk 22 iyul, 2015; Federika Moqerini 29 fevral, 2016; Donald Tusk 16 fevral, 2017)* səsləndirilməsi, eləcə də AP tərəfindən dayanıqlı olaraq Azərbaycanın ərazi bütövlüyünə qəti mövqenin nümayiş etdirilməsi, habelə, Aİ-nin Xarici Qlobal Strategiyasında dövlətlərin suverenliyi və ərazi bütövlüyü kimi əsas prinsiplərin qeyd olunması ermənipərəst qüvvələrin AP çərçivəsində Dağlıq Qarabağa dair planlarının reallaşdırılmasını çətinləşdirir və belə olan təqdirdə, bu qüvvələr Azərbaycana qarşı "insan hüquqları" kartından daha intensiv istifadə edərək ictimai rəydə beynəlxalq hüquq prinsiplərini üstələyə biləcək "insan hüquqları" amilindən dəyərlənmək istəyirlər. Təəssüflər olsun ki, Azərbaycanın ərazi bütövlüyünün əleyhinə yönəlmiş bu fəaliyyətə 06 fevral tarixli tədbirdə olduğu kimi özlərini azərbaycanlı kimi təqdim edən şəxslər də qoşulurlar.

Yuxarıdakı qeyd olunanları nəzərə alaraq düşünürük ki, AP-də Azərbaycan əleyhinə bu fəaliyyətin ifşa olunmasının *(06 fevral tarixli tədbirin davamı kimi)* ölkə mətbuatında müvafiq qaydada işıqlandırılması məqsədəmüvafiq olardı.

Bundan əlavə, Milli Məclis və digər qurumların AP çərçivəsində əməkdaşlıq etdiyi deputatlar ilə təmaslarında Azərbaycan tərəfinin narazılığını qabartması və AP daxilində bu kimi propaqanda xarakterli tədbirlərin təşkil edilməsinin yolverilməzliyinə dair prinsipial mövqeyimizin davamlı nümayiş etdirilməsi olduqca vacibdir.

Məsələ ilə bağlı AR-nın Prezidenti Administrasiyası və Milli Məclisinin məlumatlandırılmasını xahiş edirik

Hörmətlə,

**Səfir: Fuad İsgəndərov** ______________

**İcraçı: P.Ağazadə (3156)**

Search




ts implications of the Nagorno-Karabakh conflict"

:P

33

280 views

2

••• More

Up next




Frank Engel
support for t
Nagorno-Kar
Frank Engel MEF
2,949 views

**Azərbaycan Respublikasının Səfirliyi / Avropa Birliyi yanında Nümayəndəliyi**
**Ambassade de la République d'Azerbaïdjan / Mission auprés de l'Union Européenne**
**Ambassade van de Republiek Azerbaidzjan / Missie bij de Europese Unie**

Avenue Molière 464, B-1050 Brussels – Tel.: +32(0)2 345 26 60 – Fax: +32(0)2 345 91 58 – e-mail: office@azembassy.be

№ AZ-029-07

*Brussels, 15 February 2017*

**Your Excellency,**

I would like to share with you my deepest concern about the press conference hosted by MEP Frank Engel, held at the European Parliament premises in Strasbourg on 14 February 2017. The topic of the press conference was "*Implications for human rights of the Nagorno-Karabakh conflict*". Besides Mr. Engel, it included another speaker Mr. Ruben Melikyan, who was introduced as "ombudsman" of so-called "Nagorno Karabakh Republic", illegal regime established in the occupied territories of Azerbaijan.

As you know the European Union, and in particular the European Parliament, have on numerous occasions clearly stated that it supports territorial integrity of Azerbaijan and does not recognize Nagorno-Karabakh as an independent state. Consequently, attempt to use the premises of the European Parliament for the event with the participation of occupational regime seems inappropriate. Moreover, the event was not listed as a personal event, but rather as a press conference and this fact clearly indicates abuse of the image of the European Parliament. I believe that the European Parliament should not allow its premises to be misused in order to grant a false aura of recognition to an occupied territory. As the result of this military aggression, more than 1 million Azerbaijanis were expelled from their native lands who are now deprived of exercising their basic fundamental rights such as to return to their homes.

This deliberately planned event seeking to use human rights topic for propaganda purposes and against the principles of international law, could cast shadow on the image of the European Parliament as one of the strongest defenders of human rights in the world.

In view of the aforementioned, I would highly appreciate if necessary measures will be taken in order to ensure that such an event will not take place again in the future.

I remain at your entire disposal should you need any further information.

Sincerely,

**Mr. Antonio Tajani**
**President of the European Parliament**

Mr. Fuad Isgandarov
Ambassador, Head of the Mission
of the Republic of Azerbaijan to EU

**Azərbaycan Respublikasının Səfirliyi / Avropa Birliyi yanında Nümayəndəliyi**
**Ambassade de la République d'Azerbaïdjan / Mission auprés de l'Union Européenne**
**Ambassade van de Republiek Azerbaidzjan / Missie bij de Europese Unie**

Avenue Molière 464, B-1050 Brussels – Tel.: +32(0)2 345 26 60 – Fax: +32(0)2 345 91 58 – e-mail: office@azembassy.be

N° AZ-030-07

*Brussels, 15 February 2017*

**Dear Mrs. Fotyga,**

I would like to share with you my deepest concern about the press conference, hosted by MEP Frank Engel held at the European Parliament premises in Strasbourg on 14 February 2017. The topic of the press conference was "*Implications for human rights of the Nagorno-Karabakh conflict*". Besides Mr. Engel, it included another speaker Mr. Ruben Melikyan, who was introduced as "ombudsman" of so-called "Nagorno Karabakh Republic", illegal regime established in the occupied territories of Azerbaijan.

As you know the European Union, and in particular the European Parliament, have on numerous occasions clearly stated that it supports territorial integrity of Azerbaijan and does not recognize Nagorno-Karabakh as an independent state. Consequently, attempt to use the premises of the European Parliament for the event with the participation of occupational regime seems inappropriate. Moreover, the event was not listed as a personal event, but rather as a press conference and this fact clearly indicates abuse of the image of the European Parliament. I believe that the European Parliament should not allow its premises to be misused in order to grant a false aura of recognition to an occupied territory. As the result of this military aggression, more than 1 million Azerbaijanis were expelled from their native lands who are now deprived of exercising their basic fundamental rights such as to return to their homes.

This deliberately planned event seeking to use human rights topic for propaganda purposes and against the principles of international law, could cast shadow on the image of the European Parliament as one of the strongest defenders of human rights in the world.

In view of the aforementioned, I would highly appreciate if necessary measures will be taken in order to ensure that such an event will not take place again in the future.

I remain at your entire disposal should you need any further information.

Sincerely,

Mr. Fuad Isgandarov
Ambassador, Head of the Mission
of the Republic of Azerbaijan to EU

**Mrs. Anna Elżbieta Fotyga**
**Chair of the Subcommittee on Security and Defence**
**European Parliament**

**Azərbaycan Respublikasının Səfirliyi / Avropa Birliyi yanında Nümayəndəliyi**
**Ambassade de la République d'Azerbaïdjan / Mission auprés de l'Union Européenne**
**Ambassade van de Republiek Azerbaidzjan / Missie bij de Europese Unie**

Avenue Molière 464, B-1050 Brussels – Tel.: +32(0)2 345 26 60 – Fax: +32(0)2 345 91 58 – e-mail: office@azembassy.be

N° Az-031-07

*Brussels, 15 February 2017*

**Dear Mr. Panzeri,**

I would like to share with you my deepest concern about the press conference, hosted by MEP Frank Engel held at the European Parliament premises in Strasbourg on 14 February 2017. The topic of the press conference was "*Implications for human rights of the Nagorno-Karabakh conflict*". Besides Mr. Engel, it included another speaker Mr. Ruben Melikyan, who was introduced as "ombudsman" of so-called "Nagorno Karabakh Republic", illegal regime established in the occupied territories of Azerbaijan.

As you know the European Union, and in particular the European Parliament, have on numerous occasions clearly stated that it supports territorial integrity of Azerbaijan and does not recognize Nagorno-Karabakh as an independent state. Consequently, attempt to use the premises of the European Parliament for the event with the participation of occupational regime seems inappropriate. Moreover, the event was not listed as a personal event, but rather as a press conference and this fact clearly indicates abuse of the image of the European Parliament. I believe that the European Parliament should not allow its premises to be misused in order to grant a false aura of recognition to an occupied territory. As the result of this military aggression, more than 1 million Azerbaijanis were expelled from their native lands who are now deprived of exercising their basic fundamental rights such as to return to their homes.

This deliberately planned event seeking to use human rights topic for propaganda purposes and against the principles of international law, could cast shadow on the image of the European Parliament as one of the strongest defenders of human rights in the world.

In view of the aforementioned, I would highly appreciate if necessary measures will be taken in order to ensure that such an event will not take place again in the future.

I remain at your entire disposal should you need any further information.

Sincerely,

**Mr. Pier Antonio Panzeri**
**Chair of the Subcommittee on Human Rights**
**European Parliament**

Mr. Fuad Isgandarov
Ambassador, Head of the Mission
of the Republic of Azerbaijan to EU

**Azərbaycan Respublikasının Səfirliyi / Avropa Birliyi yanında Nümayəndəliyi**
**Ambassade de la République d'Azerbaïdjan / Mission auprés de l'Union Européenne**
**Ambassade van de Republiek Azerbaidzjan / Missie bij de Europese Unie**

Avenue Molière 464, B-1050 Brussels – Tel.: +32(0)2 345 26 60 – Fax: +32(0)2 345 91 58 – e-mail: office@azembassy.be

N° 17-032-07

*Brussels, 15 February 2017*

**Dear Mr. McAllister,**

I would like to share with you my deepest concern about the press conference, hosted by MEP Frank Engel from EPP group, held at the European Parliament premises in Strasbourg on 14 February 2017. The topic of the press conference was "*Implications for human rights of the Nagorno-Karabakh conflict*". Besides Mr. Engel, it included another speaker Mr. Ruben Melikyan, who was introduced as "ombudsman" of so-called "Nagorno Karabakh Republic", illegal regime established in the occupied territories of Azerbaijan.

As you know the European Union, and in particular the European Parliament, have on numerous occasions clearly stated that it supports territorial integrity of Azerbaijan and does not recognize Nagorno-Karabakh as an independent state. Consequently, attempt to use the premises of the European Parliament for the event with the participation of occupational regime seems inappropriate. Moreover, the event was not listed as a personal event, but rather as a press conference and this fact clearly indicates abuse of the image of the European Parliament. I believe that the European Parliament should not allow its premises to be misused in order to grant a false aura of recognition to an occupied territory. As the result of this military aggression, more than 1 million Azerbaijanis were expelled from their native lands who are now deprived of exercising their basic fundamental rights such as to return to their homes.

This deliberately planned event seeking to use human rights topic for propaganda purposes and against the principles of international law, could cast shadow on the image of the European Parliament as one of the strongest defenders of human rights in the world.

In view of the aforementioned, I would highly appreciate if necessary measures will be taken in order to ensure that such an event will not take place again in the future.

I remain at your entire disposal should you need any further information.

Sincerely,

Mr. Fuad Isgandarov
Ambassador, Head of the Mission
of the Republic of Azerbaijan to EU

**Mr. David McAllister**
**Chair of Committee on Foreign Affairs**
**Rue Wiertz 60**

Azərbaycan Respublikasının Səfirliyi / Avropa Birliyi yanında Nümayəndəliyi
Ambassade de la République d'Azerbaïdjan / Mission auprés de l'Union Européenne
Ambassade van de Republiek Azerbaidzjan / Missie bij de Europese Unie

Avenue Molière 464, B-1050 Brussels – Tel.: +32(0)2 345 26 60 – Fax: +32(0)2 345 91 58 – e-mail: office@azembassy.be

№ AZ-028-07

*Brussels, 15 February 2017*

**Dear Mr. Weber,**

I would like to share with you my deepest concern about the press conference, hosted by MEP Frank Engel from EPP group, held at the European Parliament premises in Strasbourg on 14 February 2017. The topic of the press conference was "*Implications for human rights of the Nagorno-Karabakh conflict*". Besides Mr. Engel, it included another speaker Mr. Ruben Melikyan, who was introduced as "ombudsman" of so-called "Nagorno Karabakh Republic", illegal regime established in the occupied territories of Azerbaijan.

As you know the European Union, and in particular the European Parliament, have on numerous occasions clearly stated that it supports territorial integrity of Azerbaijan and does not recognize Nagorno-Karabakh as an independent state. Consequently, attempt to use the premises of the European Parliament for the event with the participation of occupational regime seems inappropriate. Moreover, the event was not listed as a personal event, but rather as a press conference and this fact clearly indicates abuse of the image of the European Parliament. I believe that the European Parliament should not allow its premises to be misused in order to grant a false aura of recognition to an occupied territory. As the result of this military aggression, more than 1 million Azerbaijanis were expelled from their native lands who are now deprived of exercising their basic fundamental rights such as to return to their homes.

This deliberately planned event seeking to use human rights topic for propaganda purposes and against the principles of international law, could cast shadow on the image of the European Parliament as one of the strongest defenders of human rights in the world.

In view of the aforementioned, I would highly appreciate if necessary measures will be taken in order to ensure that such an event will not take place again in the future.

I remain at your entire disposal should you need any further information.

Sincerely,

Mr. Fuad Isgandarov
Ambassador, Head of the Mission
of the Republic of Azerbaijan to EU

**Mr. Manfred Weber**
**Chair of the European People's Party Group**
**European Parliament**